HƏMZƏ CƏFƏROV
*Naxçıvan Dövlət Universiteti*
*Tarix elmləri doktoru, professor*

# AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ PROSESLƏR VƏ GƏNCLƏR HƏRƏKATI (80-Cİ İLLƏRİN II YARISI)

80-ci illərin ikinci yarısında keçmiş SSRİ-də və Azərbaycanda baş verən sosial-siyasi proseslər gənclər hərəkatına güclü təsir göstərdi. «Yenidən-qurma»nın elan olunmuş cəlbedici məqsədləri bütün sosial təbəqələrin, xüsusən gənclərin siyasi fəallığının artmasına səbəb oldu. Gənclər arasında demokratiya, müstəqillik ideyaları güclənməyə başladı. İmperiyanı dağılmaqdan qorumaq, Azərbaycanı əldə saxlamaq üçün Mərkəz yenidən uydurma Dağlıq Qarabağ problemini qızışdırmağa, millətlərarası münasibətləri kəskinləşdirməyə başladı. Yaranmış fürsətdən məharətlə istifadə edən erməni millətçiləri Azərbaycanın hesabına öz torpaqlarını genişləndirmək məqsədilə açıq təcavüzə başladılar. Lakin Azərbaycanın o zamankı rəhbərliyinin cinayətkar laqeydliyi nəticəsində respublikanın suveren hüquqları tapdalandı, azərbaycanlılar öz dədəbaba torpaqlarından deportasiya olundular. Hadisələrin belə gedişi Azərbaycanda milli hərəkatın qalxmasına təkan verdi. Hərəkatın əsas hərəkətverici qüvvəsi tərəqqipərvər və milli ruhlu Azərbaycan gəncliyi idi. 1987-ci ilin sonlarında Azərbaycan Dövlət Universitetinin bir qrup tələbəsi birləşərək «Yurd» təşkilatını yaratdılar. 1988-ci ilin əvvəllərindən əsasən gənclərdən ibarət «Çənlibel», «Müstəqillər», «Qala», «Aşıq Ələsgər», «Ozan» cəmiyyətləri, «Varlıq komitəsi», Azərbaycan Xalq Cəbhəsinin (AXC) Təşəbbüs qrupu, «Bakı gənc alimlər klubu», «Bakı incəsənət mərkəzi» fəaliyyətə başladı. Mərkəzin Dağlıq Qarabağ məsələsində tutduğu mövqeyə görə ilk etiraz mitinqini 1988-ci il fevralın 19-da gənclər keçirdilər (1, s.19, iş 8953, v.13). Həmin il mayın 16-da ADU-nun qarşısında «Yurd» təşkilatının fəal iştirakı ilə tələbələrin böyük mitinqi keçirildi. Mitinqçilər daha sonra şəhərin Lenin adına meydanına istiqamət aldılar. Tələbə-gənclər erməni millətçilərinin hərəkətlərinin qarşısını almağı tələb etdilər.

Lakin Moskvanın ermənipərəst siyasətinin davam etməsi, ermənilərin Dağlıq Qarabağda azğınlaşması 1988-ci ilin payızında Azərbaycan xalq hərəkatının daha da genişlənməsinə səbəb oldu. Noyabrın 15-də Dövlət Universiteti qarşısında, səhəri gün Elmlər Akademiyasının dəyirmi salonunda «Varlıq» cəmiyyətinin, M.Ə.Sabir adına bağda «Yurd» təşkilatının təşəbbüsü ilə mitinqlər keçirildi (1, s.19, iş 8953, v.21). 1988-ci il noyabrın 17-dən dekabrın 5-dək davam etmiş «Meydan» hərəkatı gənclərin siyasi fəallığını və vətənpərvərliyini bir daha sübut etdi. Bakıdan əlavə Gəncə, Naxçıvan və digər bölgələrdə də gənclər kütləvi etiraz nümayişlərinin önündə gedirdilər. Minlərlə adam mitinq və nümayişlərə Heydər Əliyevin portreti ilə çıxırdı. Təkcə Yevlax şəhərində 1988-ci ildə gənclərin təşkil etdiyi mitinqdə 20 minədək adam iştirak etmişdi. Ən kütləvi hərəkat olan Azərbaycan Xalq Cəbhəsinin yaradılmasında və fəaliyyətində gənc ziyalılar əsas rol oynayırdılar. Lakin xalq içərisində Heydər Əliyevin nüfuzu daha yüksək idi. Əhali onu respublikanı ağır vəziyyətdən çıxara biləcək yeganə qüvvə görürdü.

1989-cu ilin dekabrında Naxçıvanda, Biləsuvar və Cəlilabadda həyata keçirilən sərhəd hərəkatında gənclər yaxından iştirak etdilər (1, s.19, iş 8953, v.76; 162, 216). 1990-cı il yanvarın 19-20-də sovet qoşunlarının Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı hadisələrin qurbanları – ilk azadlıq şəhidləri də əsasən gənclər oldular.

Erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək

üçün ilk özününmüdafiə dəstələrinin xüsusi təyinatlı dəstələrin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olmuşdur. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan gənclərində, Ermənistanla sərhəd rayonlarında yerli gənclərdən ibarət müstəqil hərbi hissələr təşkil olunmuşdur. bir tərəfdən Qarabağ ətrafında baş verən hadisələr, digər tərəfdən isə respublikanın ictimai-siyasi həyatında cərəyan edən proseslər gənclərin siyasi davranışlarına müəyyən təsir göstərirdi. Xalq hərəkatının təsiri altında müxtəlif gənclər təşkilatlarının yaradılmasına təşəbbüslər göstərilirdi.

80-ci illərin sonlarında partiya-dövlət sisteminin böhranı komsomolun da fəaliyyətində özünü göstərirdi. Komsomolun nüfuzu gənclər arasında sürətlə aşağı düşməkdə idi. 1987-ci ilin martında keçirilmiş Azərbaycan LKGİ XXXII qurultayında bu təşkilatın sıralarında 1 mln. 238,1 min gənc oğlan və qızın olduğu bildirilirdi (9, 21). Bu ALKGİ tarixində ən böyük rəqəm idi. Lakin sonrakı proseslərin təsiri nəticəsində komsomolun sıraları kəskin surətdə azalmağa başladı. Xüsusən 20 Yanvar hadisələrindən sonra gənclər kütləvi surətdə komsomol sıralarını tərk etməyə başladılar. Komsomolu labüd iflasdan xilas etmək üçün XXXIII qurultayda (23-24 noyabr 1990-cı il) təşkilatının adı dəyişdirilərək Azərbaycanın Tərəqqisi Uğrunda Kommunist Gənclər İttifaqı (ATUKGİ) adlandırıldı. Qurultay Azərbaycan komsomolunun ÜİLKGİ-dən asılı olmayan, partiya qurumlarına tabe olmayan, müstəqil fəaliyyət göstərən, əsas vəzifəsi gənclərin sosial müdafiəsi, hüquq və azadlıqlarının keşiyində duran gənclər təşkilatı olduğunu bəyan etdi (3, 1990, 27 noyabr). Komsomol yeni şəraitə uyğunlaşmaq istiqamətində müəyyən addımlar da atmışdı. 1990-cı ilin avqustunda ALKGİ MK qərarı ilə Respublika Komsomol Məktəbi Gənclər İnstitutuna çevrilmişdi. Burada yeni ixtisaslar – politoloqlar, menecerlər hazırlanması nəzərdə tutulurdu. Azərbaycan komsomolunun qəbul etdiyi qərarlar arasında (iyun 1990-cı il) Dağlıq Qarabağ Vilayət komsomolunun fəaliyyətinin müvəqqəti dayandırılması haqqında qərarını qeyd etmək lazımdır.

1991-ci ilin avqustunda uğursuz dövlət çevrilişinə cəhdi imperiyanın iflasını sürətləndirdi. Tezliklə Azərbaycan Kommunist Partiyasının fəaliyyətinə xitam verildi. ATUKGİ özünün IV plenumunda (31 avqust 1991-ci il) bu təşkilatda yaranmış vəziyyəti müzakirə edərək xüsusi bəyanat qəbul etdi. Bəyanatda təşkilatın əsas vəzifəsi gənclərin hüquq və maraqlarının müdafiəsi, onların intellektual və mənəvi tərbiyəsinə köməklik göstərməkdən ibarət olan, həqiqətən könüllü, müstəqil, heç bir başqa qurumdan asılı olmayan, siyasi məqsədlərdən uzaq, hər cür hay-küydən azad gənclər təşkilatına çevrilməsi niyyəti ifadə olunurdu (4, 1991, 3 sentyabr).

1991-ci il sentyabrın 14-də ATUKGİ-nin Respublika konfransında keçmiş kommunist gənclər ittifaqı ideoloji və siyasi fəaliyyətdən imtina edərək «Azərbaycan Gənclər İttifaqı»na çevrildi (5, 1991, 17 sentyabr). Hələ bu qərardan əvvəl avqustun 26-da Naxçıvan MR Ali Məclisinin qərarı ilə Muxtar Respublikada komsomolun bütün struktur bölmələrinin fəaliyyəti dayandırılmış və onun mülkiyyəti müllüləşdirilmişdi (6, 761).

Beləliklə, Azərbaycanda kommunist rejiminin atributlarından biri, 70 ildən çox bütün gənclərin mənafelərini ifadə etmək hüququnu öz inhisarına almış komsomolun fəaliyyətinə son qoyuldu. Bu gün komsomolun fəaliyyətinə nəzər salarkən unutmaq lazım deyil ki, partiya-sovet sisteminin tərkib hissəsi olmasına baxmayaraq o gənclərin sosial fəallığının artırılmasında, şəxsiyyət kimi formalaşmasında müəyyən rol oynamışdır. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan gənclərinin I Forumunda komsomolun fəaliyyəti ilə bağlı dedikləri diqqətəlayiqdir: 1920-ci ildən 1990-cı ilə qədər Azərbaycanda fəaliyyət göstərən komsomol demək olar ki, bu salonda oturanların, səhv etməsəm, 90 faizinin təhsil almasında, tərbiyə almasında, formalaşmasında xidmətlər göstəribdir, o xidmətləri inkar etmək olmaz və unutmaq da olmaz.

Ona görə də biz komsomolun fəaliyyətini qiymətləndirməliyik. Komsomol, gənclər təşkilatlarının hamısı dövlətin himayəsində, dövlətin idarəsində, dövlətin vəsaiti ilə yaşayan təşkilatlar olubdur (1, 41).

Demokratikləşmə prosesi gənclərin ictimai təşkilatlarda birləşməsi prosesini sürətləndirdi. Azərbaycan gənclərinin fəal iştirakı ilə 80-ci illərin ikinci yarısında respublikada 70-ə qədər qeyri-formal cəmiyyət, təşkilat və birlik yaradılmışdı (7, 188). Bir çox siyasi partiyaların tərkibində gənclər bölməsi təşkil edilmiş, «Vətən», «Qayğı», «Qarabağa Xalq Yardımı Komitəsi», «Azərbaycan Qaçqınlar Cəmiyyəti» kimi ictimai təşkilatların fəaliyyətində gənclər yaxından iştirak edirdilər. Tələbə gənclər Xocalı şəhərinin abadlaşdırılmasında, qaçqınlar üçün Laçında «Qayğı» qəsəbəsində, Abşeronda «Xəlac» qəsəbəsində yaşayış binalarının tikintisində fəal iştirak etmişlər. 1987-1990-cı illərdə tələbələr tərəfindən 50 mln. manatlıq iş görülmüşdü (3, 1990, 4 dekabr). 1991-ci il Azərbaycan tələbə inşaat dəstəsi üçün sonuncu il oldu. Həmin ildə 3 minə yaxın tələbə bu dəstələrdə III semestrə başlamış, onların əksəriyyəti Azərbaycanda məhsul yığımında, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərində sosial-mədəni obyektlərin tikintisində çalışmışdılar (4, 1991, 7 sentyabr). ATUKGİ MK-nın yanında Qaçqınlara Yardım üzrə Gənclik Mərkəzi yaradılmış, didərginlərə ev tikmək üçün 300 nəfərdən ibarət tələbə dəstəsi yaradılmışdı. 1987-ci il seçkilərində yaşı 30-dək olan 11603 nəfər gənc kənd sovetlərinə deputat seçilmişdilər. 1989-cu ildə təqribən 140 mindən artıq gənc AXC-nin kənd özəklərində üzv və fəal kimi birləşmişdilər (7, 198).

Gənclərin sosial fəallığının artması iqtisadi və mədəni sahələrdə də özünü göstərirdi. Yeni təsərrüfat formalarının təşkilində əsas rolu gənclər oynayırdılar. 80-ci illərin sonlarından təşəkkül tapmağa başlayan kiçik müəssisələr, kooperativlər, əmək birliklərinin əsas təşəbbüskarları da məhz gənclər idilər. 400-dən artıq bu tipli müəssisələrə 1500 nəfər gənc cəlb olunmuşdu (3, 1990, 4 dekabr).

Azərbaycan gənclərinin beynəlxalq əlaqələri də genişlənməyə başlamışdı. Bu istiqamətdə Striş beynəlxalq Gənclik turizm mərkəzi mühüm rol oynayırdı. Azərbaycanın yaradıcı gənclərinin Türkiyə ilə əlaqələrində yeni səhifə açılırdı.

«Yenidənqurma»nın törətdiyi sosial-iqtisadi və mənəvi fəsadları birinci növbədə gənclər öz üzərində hiss etməyə başladılar. Gənclər yenə əvvəlki kimi respublika əhalisinin əhəmiyyətli hissəsini təşkil edirdilər. 1989-cu ildə 15-29 yaşlı vətəndaşların sayı 1.956 min nəfər təşkil edirdi ki, bu da bütün əhalinin 27,9%-i demək idi. 1970-ci illə müqayisədə (17,2%) onların xüsusi çəkisi 10,7% artmışdı. Lakin 1979-cu illə münayisədə bu rəqəm cəmi 0,1 faiz təşkil etmişdi ki, bu da gənclərin artım sürətinin aşağı düşdüyünü göstərirdi (10, 7).

Bu dövrdə gənc nəslin problemləri daha da kəskinləşmişdi. Partiya yeni şəraitdə gənclərə münasibətdə öz siyasətini dəyişməyə cəhd göstərməyə çalışırdı. Sov.İKP XXVIII qurultayında «Partiyanın gənclər siyasəti» haqqında xüsusi qətnamə qəbul edilmişdi. Orada səmərəli gənclər siyasətinin hazırlanması və həyata keçirilməsi zəruriliyi qeyd olunurdu. İlk dəfə olaraq partiya gənclərin və gənclər təşkilatlarının müstəqil siyasi fəaliyyət hüququnu tanıdı. Lakin sözlə iş arasında fərqlər, həyata keçirilən tədbirlərin genişlənməsi və əsasən təşkilati xarakter daşıması onun gənclər siyasətinin səmərəliliyini heçə endirdi. Belə səmərəsiz siyasətin labüd nəticəsi olaraq Sov.İKP gənclərin dəstəyini tam itirdi. Dövlətin gənclərin problemini tam həll etmək iqtidarında olmaması komsomola münasibətdə də özünü göstərirdi. «Yenidənqurma»nın son üç ilində komsomolun sayı 3 dəfədən çox azalmışdı. Qarabağ münaqişəsində mərkəzin və respublika rəhbərliyinin tutduğu mövqe komsomolu da dərin böhrana sürüklədi, onun təşkilatla əlaqələri və strukturları dağılmağa başlayırdı. Gənclər öz müxtəlif siyasi, sosial maraqlarını təmin etmək üçün komsomoldan kənarda müstəqil gənclər təşkilatları-

nı yaratmağa üstünlük verirdilər. Xalq təsərrüfatının bütün sahələrində bütün fəhlə və qulluqçular arasında 30 yaşına qədər fəhlə və qulluqçuların xüsusi çəkisi kəskin surətdə aşağı düşmüşdü. Mənzillə, xalq istehlakı malları, uşaq bağçaları və s. ilə təminat kimi sosial məsələlər gənclər üçün daha kəskin qarşıda dururdu. Gənc fəhlə və qulluqçuların orta əməkhaqqı dövlət sektorunda işləyənlərin əməkhaqqından təqribən iki dəfə aşağı idi (8, 53).

1988-ci ildə mənzil almış gənc ailələrin sayına görə Azərbaycan 10-cu yerdə idi. Bir çox göstəricilərə görə də respublikamız ümumittifaq göstəricilərindən çox geridə qalırdı. Gənclər üçün mallar satan mağazaların sayına görə 1985-ci ildə 8-15-ci, 1988-ci ildə 10-14-cü yerləri bölüşdürən respublikamız, 1000 nəfərə düşən idman qurğularının sayına görə doqquzuncu yerdə idi. Bir yaşına çatmamış uşaq ölümünə görə Azərbaycan son 20 ildə ümumittifaq göstəricilərindən geridə qalırdı və vəziyyətin qeyri-qənaətbəxş olduğu 6 respublikadan biri idi (8, 53). Elm, təhsil və mədəniyyət sahəsində disproporsiyalar artmaqda idi. Məsələn, əgər elm sahəsində gənc mütəxəssislərin sayına görə Azərbaycan doqquzuncu yerdə idisə, mədəniyyət və incəsənət sahəsində beşinci, təhsil sahəsində isə 13-cü yeri tuturdu. Xalq təsərrüfatında çalışan ali və natamamali təhsilli gənclərin sayına görə Azərbaycan 1985-ci ildə ikinci yerdə idisə, iki ildən sonra aşağı düşərək, artıq 4-7-ci yerləri tuturdu (8, 53).

Orta məktəbi bitirdikdən sonra işə başlayanların sayı da kəskin surətdə azalmaqda idi: 1974-cü illə müqayisədə 1987-ci ildə üç dəfə az məzun xalq təsər-rüfatında işə başlamışdı.Təsərrüfatın bütün sahələri üzrə gənc rəhbər kadrların sayı aşağı düşməkdə idi. 1985-1987-ci illərdə gənc mütəxəssislərin $^{3}/_{5}$ hissəsi öz ixtisası üzrə işləmirdi. Ümumilikdə 250 mindən çox adam ictimai əməyə cəlb edil-məmişdi. Özü də əhalinin bu kateqoriyasından olan gənclərin sayı artmaqda idi.

80-ci illərin II yarısında keçmiş SSRİ-də başlanmış siyasi proseslər Azərbaycanda gənclər hərəkatına ciddi təsir göstərdi. Milli azadlıq hərəkatında, Azərbaycanın ərazi bütövlüyünün qorunmasında gənclər ən fəal ictimai qüvvə oldular. İlk müstəqil gənclər təşkilatlarının yaranması da məhz bu dövrə təsadüf edir.

Lakin gənclərin yaradıcı potensialından istifadə etmək üçün zəruri sosial-iqtisadi, siyasi-hüquqi, təşkilati tədbirlərin həyata keçirilməməsi, siyasi proseslə-rin dağıdıcı xarakter alması, milli münaqişələrin kəskinləşməsi gənclərin vəziy-yətini daha da ağırlaşdırırdı.

Respublikada dövlət gənclər siyasətinin əsasları haqqında qanun qəbul edilsə də, onun həyata keçirilməsi o zamankı siyasi şəra-itdə mümkün olmadı. Gənclərlə iş sahəsində yaranmış boşluq yalnız cənab Heydər Əliyevin ikinci dəfə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırıldı.

### ƏDƏBİYYAT

1.Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı: Azərnəşr, 1998, 152 s.
2.Azərbaycan MEA Arxifi, f.1
3.ALKGİ, XXXIII qurultayı haqqında məlumat. «Azərbaycan gəncləri» (AG) qəzeti, 1990
4.Azərbaycanın Tərəqqisi Uğrunda Kommunist Gənclər İttifaqı (ATUKGİ) MK-nın IV plenumu haqqında məlumat. AG, 1991
5.ATUKGİ Respublika konfransı haqqında məlumat. AG, 1991
6.1Qayıdış. 1991-1993. Bakı: Azərnəşr, 1996, 792 s.
7.Qaffarov T. Azərbaycan kənd əhalisinin həyat tərzi. Ümumbəşəri və milli dəyərlərin deformasiyası. Bakı: Elm, 1992, 407 s.
8.Алескеров Ф., Самедов И. Концепция государственной молодежной политики. «Коммунист Азербайджана», 1990, №12
9.Материалы делегату XXXII съезда ЛКСМ Азербайджана. Баку: Гянджлик, 1987, 109 с.

10.Нагдалиев З. Молодежная политика в Азербайджанской Республике. Автореф. дисс.... канд.ист.наук. Москва, 1992, 17 с.

**ГАМЗА ДЖАФАРОВ**

**ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНЕ И МОЛОДЕЖНОЕ ДВИЖЕНИЕ (ВТОРАЯ ПОЛОВИНА 80-ЫХ ГОДОВ)**

В статье рассмотрены вопросы влияния общественно-политических процессов в Азербайджане, в конце 80-ых годов прошлого века на молодежное движение, расширения идеи демократии и независимости междуними, роли происходящих событий в назревание национального движения, движущей силой которого выступала национально патриотическая молодеж.

В статье на основы конкретных исторических фактов также проанализированы развитие событий к конце 80-ых годов в связи с захватническими и гнусными действиями армян в Нагорном Карабахе и расширение на этой основе народного движения в Азербайджане, создание ряда молодежных организаций на фоне роспуска и приостановления деятельности комсомола, проведение митингов в регионах республики, объединение молодежы в новых общественных структурах и их роль в дальнейшей демократизации общественно-политической системы.

**HAMZA JAFAROV**

**MOVEMENT OF YOUNG AND SOCIAL PROCESSES IN AZERBAIJAN (IN THE 2ND HALF OF THE 80TH S)**

In the article have taken basic part influence of processes going in Azerbaijan social to the young movement at the end of the 80th years of the last century, democracy among they, giving a push to becoming stronger of the independence ideas, to rising of the National Movement of the events where/which have/has happened and to being of the progressive and national spirit youths of Azerbaijan of the basic motive strength of this movement.

Against expanding of the people movement Azerbaijan become unbridled in the Nagorny Karabakh here of the Armenians at the end of the 80th years, arising of the a few of youths organizations, holding in regions of the meetings, put an end to activities of the Komsomol, arising of the youths organization substituting, joining in social organizations young in the process of getting democratized, increase of the social activity, from the scientific side referring to historical facts correctly and comparisons have carried out .

***Rəyçilər: AMEA-nın həqiqi üzvü İ.M.Hacıyev, t.e.d.H.Səfərli, t.e.d.A.Ə.Məmmədov.***

***Naxçıvan Dövlət Universitetinin «Ümumi tarix» kafedrasının 25 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10).***